## Mirzə Saleh TƏBRİZİ

*Yeriməz salik olan rahi-rizadən qeyri,*
*İstəməz arif olan cövrü cəfadən qeyri.*

*Vardır hər nə gərək mehrü vəfadən qeyri,*
*Yoxudur, istəməyin cövrü cəfadən qeyri.*

*Görmədim mehr təriqində sitəmdən özgə,*
*Gəlmədi eşqdə başıma bəladən qeyri.*

*Görgəc ol xosrovi-xubanı nə əfğanlar edim,*
*İti söz kimsə deməz şahə gədadən qeyri.*

*Yardan başqa dü aləmdə muradım yoxdur,*
*Nə gərək dərdi olan canə dəvadən qeyri.*

*Könlini saf elə xəlq iləvü asudə diril,*
*İstəməz ayinə heç kimsə səfadən qeyri.*

*Əhli-məal nəvü mehri nəvü kini nə ola,*
*Saymadım heç kimi mövcud Xudadan qeyri.*

*Qədü baləvü gözü qaşilə yox bazarım,*
*Könlümü seyd etməz imiş hüsn ədadan qeyri.*

*Qapı çox gəzdimü göz yaşımı bica tökdüm,*
*Yox imiş dadə yetən kimsə Xudadan qeyri.*

*Salehi mən edərlər meyü məşuqindən,*
*Bana heç kim sitəm etməz Salehadan qeyri.*

* * *

*Mehrü vəfa sözini heç kimsədən inanmaz,*
*Yəğmadən əl götürməz, bidaddən usanmaz.*

*Can vermişəm yolunda yüz bin xəcalət ilə.*
*Bilməm neçün demişlər, varın verən utanmaz.*

*Vaiz, sənin kəlamün hər biri neştər olsa,*
*Hər kimi basdı qəflət, ta diridir, oyanmaz.*

*Mən çərxə atmışam taş, mən eşqi etmişəm faş,*
*Mərd etdügini söylər, ər dedügini danmaz.*

*Töhmət deyər özinə, nə söylər özgəsiçün,*
*Utanmiyən özündən heç kimsədən utanmaz.*

*Hirsilə etmə möhkəm qəsri-əməl binasın,*
*Seyli-qəza önində çərxi-bərin dayanmaz.*

*Göz həqq yolından örtən tənbihi həqqə lazım.*
*Ağır olan yuxusi, oyatmasan, oyanmaz.*

*Saleh, nə kibriyadur ol nazlu dilrubadə,*
*Heç xəstəsini sormaz, heç aşiqini anmaz.*

* * *

*Sən dərd duymamış nə sölərsən dəvasını,*
*Hər nəstə bilməyə, deyə kimsə vabaldır.*
*Ya mehr, ya sitəm, birini səndən istərəm,*
*Lütfün əgər həram isə, qanım həlaldır.*
*Dünyanın alu yaşılı bir-birə yaraşür,*
*Gər qövr ilən nəzər edəzən, vari aldır.*
*Küsməkdən özgə söz söləməz şahr vaizə.*
*Bir taş ürəkli, odlu ağız, bikəmaldır.*

* * *

*Ola, yarəb, bir kərəz yarım bəni yad eyləyə,*
*Afəti-qəm görməsin hər kim bəni şad eyləyə.*

*Bu könül abad ikən viranə oldı hicrdən,*
*Şimdi vəqtidür ki, bu virani abad eyləyə.*

*Rəhm qalxubdur aradən, göz dutım qan ağlaya,*
*Dadinə kimdür yetən, könlüm dutım dad eyləyə.*

